İlk öncə ulu öndər Heydər Əliyevin Gəncə Şəhər İcra Hakimiyyətinin qarşısında ucaldılmış büstü önünə gül dəstələri qoyulub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yubiley tədbirində təhsil naziri Misir Mərdanov, nazirliyin şöbə müdirləri, ali məktəb rektorları, Gürcüstandan gəlmiş ali məktəb müəllimləri, millət vəkilləri və digər qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov universitetin 70 illik yubileyi münasibətilə təhsil ocağının bütün əməkdaşlarını təbrik edib, ölkəmizin ali məktəbləri arasında Gəncə Dövlət Universitetinin özünəməxsus yerinin olduğunu bildirib.

Görülmüş işlərdən və qazanılmış uğurlardan danışan Gəncə Dövlət Universitetinin rektoru Elman Məmmədov hazırda universitetdə 8 fakültə və 10 şöbənin fəaliyyət göstərdiyini nəzərə çatdırıb.

Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov Gəncə Dövlət Universitetinin elmi tədqiqatların təşkili və tətbiqi istiqamətində geniş təcrübə qazandığını bildirib. Nazir universitetin 70 illik yubileyi ilə əlaqədar Azərbaycanda təhsilin inkişafındakı xitmətlərinə görə ölkə Prezidenti cənab İlham Əliyevin Sərancamı ilə Gəncə Dövlət Universitetinin əməkdaşlarına verilən mükafatları təqdim edib və kollektivə gələcək işlərində uğurlar arzulayıb.

Yubileyə gəlmiş digər qonaqlar da Gəncə Dövlət Universitetinin səmərəli fəaliyyətindən söz açıb, öz hədiyyələrini tədris ocağının kollektivinə təqdim ediblər.

Daha sonra yubileyə qatılmış qonaqlarla birlikdə Nizami Gəncəvinin və Cavadxanın məqbərələrini ziyarət edən təhsil naziri Misir Mərdanov M.C.Paşayev adına 39 və C.Cabbarlı adına 6 saylı orta məktəblərdə də olub.

Günün ikinci yarısında Gəncə Dövlət Universitetində “dəyirmi masa” keçirilib. Təhsil naziri universitetin 13 əməkdaşını Azərbaycanın Qabaqcıl Təhsil İşçisi döş nişanı ilə təltif edib.

Yubiley tədbiri M.C Paşayev muzeyində Gəncə Dövlət Universitetinin 70 illik yubileyinə həsr olunmuş konsert proqramı ilə başa çatıb.